# Qarşılıqlı əlaqələr gələcək əməkdaşlığa hesablanıb

Sumqayıt Dövlət Universitetinin (SDU) nümayəndələri Sumqayıt Texnologiyalar Parkında (STP) olublar. "Dəyirmi masa" ətrafında keçən görüşdə STP-nin baş icraçı direktoru Hicran Valehov istehsal və təhsil müəssisələri arasında səmərəli əməkdaşlığın genişlənməsindən məmnunluğunu bildirib.

Baş icraçı direktor sənaye parkının fəaliyyətindən danışaraq perspektiv əməkdaşlığın genişləndirilməsində müəssisənin maraqlı olduğunu, 22 dekabr 2009-cu ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilən sənaye parkının daxili bazarın tələbatını tam ödəməklə bərabər, ölkə xaricinə də məhsullar göndərdiyini qeyd edib. Şirkət üçün ixtisaslı kadrların hazırlanmasının bu gün heç zaman olmadığı qədər aktual olduğu və bu məqsədlə xüsusi treninq proqramının hazırlanıb həyata keçirilməsinin nəzərdə tutulduğu vurğulanıb. STP-nin kadrlar hazırlayan ali məktəblər, xüsusilə SDU ilə əməkdaşlıqda maraqlı olduğu qeyd olunub. Bildirilib ki, əməkdaşlıq çərçivəsində SDU-nun timsalında təhsil və praktikanın sintezi faydalı nəticələr verəcək və gələcək əməkdaşlıq sahəsində uğurlu, perspektivli addımlar atılacaq.



Sumqayıt Dövlət Universitetində kadr potensialının inkişafı üçün müxtəlif layihələrin gerçəkləşdirildiyini bildirən rektor Rüfət Əzizov bu görüşün hər iki tərəf üçün əhəmiyyətli olmaqla yanaşı, ölkəmizin kadr potensialının inkişafına böyük töhfələr verəcəyinə və gələcək əməkdaşlığın uğurlu olacağına inandığını bildirib. Rektor həmçinin qarşıdakı illərdə ixtisasların məzmununun yenilənməsi işində də Sumqayıtda yerləşən müəssisələrlə əməkdaşlığın nəticələrinin əsaslı rol oynayacağını vurğulayıb.

Tərəflər tələbələrin istehsalat təcrübəsi ilə birgə elmi-tədqiqat sahələrində də əməkdaşlıq perspektivləri, tərəfdaş istehsalat müəssisələri ilə ortaq tədqiqat predmetlərinin aktuallaşdığını qeyd ediblər.

Görüşdən sonra nümayəndə heyəti "STP Global Cable" MMC-nin tərkibindəki müxtəlif məhsullar istehsal edən və illik istehsal gücü 200 min ton olan Elektrik Avadanlıqları, Kabel və Sinkləmə zavodlarının sexlərində iş prosesləri ilə yaxından tanış olublar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*